# İnteqrasiya edərkən milli dəyərlərimizi unutmayaq

**Milli dəyər bir cəmiyyətin, bir millətin mənəvi dəyər və həyat psixologiyasını özündə ehtiva edən ənənələr toplusudur. Təsadüfi deyil ki, millətin psixologiyasını, onların yaşam qayəsini öyrənmək üçün tədqiqatçılar, ilk növbədə, həmin millətin milli dəyər və adətlərini araşdırırlar. Milli dəyərlər təkcə bir dövr insanının arzu və istəklərindən ibarət deyil. Bu ənənələr toplusu həm də xalqın düşüncə keçmişini, indisini və gələcəyini formalaşdıran bir genofonddur. Milli dəyərlərin yaşadılması bir xalqın milli-mənəvi irsinin nəsildən-nəslə ötürülməsi deməkdir.**



Azərbaycan xalqının taleyində baş verən mühüm hadisələr, İslam dininin qəbul edilməsi milli dəyərlərimizə istər dünyəvi, istərsə də dini baxımdan yeni koloritlər gətirmişdir. Bu baxımdan, xalqımıza məxsus milli dəyərlər olduqca zəngin və çoxşaxəlidir.

Milli dəyərlərimizin fundamentini ailə dəyərləri təşkil edir. Aydındır ki, hər bir azərbaycanlının xüsusi önəm verdiyi həyat həqiqətlərindən biri də ailədir. Azərbaycanlı psixologiyasında ailə faktoru digər xalqlarla müqayisədə daha dərin və uzunömürlüdür. Yəni ailə üzvləri böyüdükcə digər millətlərdən fərqli olaraq, ailədən uzaqlaşmır, əksinə, daim əlaqələrini genişləndirir. Həmçinin ailədə hər bir fərdin öz yeri və üzərinə düşən öhdəlikləri vardır. Azərbaycanlı psixologiyasında ailə müqəddəsdir; o, gücü, birliyi, iradəni təmsil edir. Bundan əlavə, ailə faktorunda önəm verdiyimiz ikinci amil Azərbaycan xanımı və onun ailədə yeridir. Milli dəyərlərimiz prizmasından Azərbaycan xanımını bu şəkildə təsvir edə bilərik: Azərbaycan xanımı, ilk növbədə, qayğıkeş, mərhəmətli ana, namuslu qadın, ləyaqətli həyat yoldaşı, xanım-xatın, ailəcanlı, ismətli, yeri gələndə mərd olmalıdır. Biz bu nüansları Azərbaycan xanımlarının milli geyimlərində də görə bilərik. Ümumilikdə, demək olar ki, Azərbaycan xanımının cəmiyyətdə yeri və xanıma olan hörmət digər millətlərlə müqayisədə daha fərqli və özünəməxsusdur.

İnteqrasiya həyatımızın bütün mərhələlərində bizi izləyir. Tənzimlənmiş və yerində edilən hər bir inteqrasiya və dəyişiklik cəmiyyətin inkişafı üçün labüd bir məsələdir. İstənilən bir sahədə Qərb ölkələrinə, xüsusən də Avropaya inteqrasiya edərkən biz öz ideologiyamıza əsaslanaraq özümüz üçün faydalı nüansları mənimsəməliyik. Əfsuslar olsun ki, bu gün cəmiyyət inteqrasiyadan çox Avropaya bənzəməyə çalışır. Avropaya inteqrasiya dedikdə, bir çox hallarda öz dəyərlərimizi silmə kimi də qələmə verilir. Əlbəttə ki, bu, belə deyil. Əksinə, əslində, bu, qarşılıqlı əlaqələndirmədir. Yazının əvvəlində qeyd etdik, milli dəyərlər bir dövr insanının arzu və istəklərini təcəssüm etdirmədiyi kimi, bir dövr insanının arzu və istəklərinə uyğun olaraq dəyişilə də bilməz.

Təəssüflər olsun ki, bu gün düşünülməmiş reallaşan "inteqrasiya" bizdən əvvəlkilərin qoruduğu və bizim də qorumalı olduğumuz milli dəyərlərimizə mənfi təsirsiz ötüşmür. Bu gün cəmiyyət üzvləri, xüsusilə gənclər arasında Qərb ailə mədəniyyətini mənimsəməyə çalışanlar var. Deməzdim ki, Qərbdəki ailə mədəniyyəti bizdəkindən daha üstündür. Qətiyyən. Qeyd olunmalıdır ki, bu gün Qərb ölkələri ailə bağlarını möhkəmləndirmək, qadın faktorunun əhəmiyyətini cəmiyyətə aşılamaq üçün Şərq ailə və qadına münasibət mədəniyyətini mənimsəməyə çalışır. Bütün bunlar cəmiyyətin gələcəyi üçün mühüm bir prosesdir.

Azərbaycanın milli dəyərləri qətiyyən cahilliyi və çərçivəliliyi təmsil etmir. Göstərdiyimiz kimi, bəzi hallarda bəyəndiyimiz, bənzəməyə çalışdığımız Avropa özü də inteqrasiyaya ehtiyac duyur. Bu ehtiyacın əsas hədəfi isə Şərqdə, eləcə də Azərbaycanda mövcud olan əxlaq normalarının mənimsənilməsi və Avropa insanına təlqin edilməsidir. Fikrimizi daha aydın ifadə edək. Bu günlərdə bir jurnalda Avropa ictimaiyyətinin qadına münasibətini, Avropa kişisinin gözündə qadının necə göründüyünü əks etdirən bir yazı oxudum. Və mənə məlum oldu ki, Şərqdə qadın, necə deyərlər, baş tacı edilmiş zərif bir məxluqdur. Məhz bu dəyərə görə avropalı qadınlar, sözün həqiqi mənasında, Şərq qadınına, eləcə də Azərbaycan qadınına bəslənən münasibətə həsəd aparırlar. Buna görədir ki, Qərb ölkələrində qadınlardan ibarət müxtəlif təşkilatlar yaradılır və bu təşkilatların əsas qayəsi xüsusilə türk mədəniyyətində qadının yeri faktorunun ölkələrində tətbiq olunmasına nail olmaqdan ibarətdir.

Biz də bu gün inteqrasiya ediriksə, düşünməliyik ki, nəyi mənimsəyirik? Bu, bizə lazımdırmı? Bütün bunlar cəmiyyətə nə kimi təsir edəcək? Unutmamalıyıq ki, bu mövzuda aldığımız hər bir qərar təkcə bizə yox, həm də bütövlükdə cəmiyyətə təsir edə bilir və biz buna görə ictimai məsuliyyət daşıyırıq.

Əslində, bu yazını başqa səpkidə də yazmaq olardı. Belə ki, mən heç də cəmiyyəti, milləti inteqrasiyaya qarşı olmağa çağırmıram. Sadəcə olaraq, demək istəyirəm ki, inteqrasiya edərkən milli dəyərlərimizi unutmayaq, milli ruhun himayəsindən çıxmayaq və hər zaman onları layiqincə dəyərləndirməyi bacaraq.

**Səyyar MƏMMƏDOV**